# XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİ BÖLGƏLƏRİMİZDƏ DƏ ANILIB

*Xocalı faciəsinin 33-cü ildönümü ilə bağlı respublikamızın ayrı-ayrı bölgələrində anım tədbirləri keçirilib, faciə qurbanlarının xatirəsi ehtiramla anılıb. Tədbirlərdə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsində həlak olan qəhrəman döyüşçülərin, əsgər və zabitlərin göstərdiyi şücaət nəticəsində Xocalının və digər şəhər və kəndlərimizin işğaldan azad edilməsi tariximizin ən şanlı səhifələrindən biridir.*

## Mingəçevir

Mingəçevir Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Xocalı soyqırımına həsr olunmuş silsilə tədbirlər keçirilib. Mingəçevir Şəhidlər Xiyabanında Soyqırım abidə-kompleksinin qarşısına tər gül dəstələri düzülüb. Sonra Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, YAP Şəhər Təşkilatının, şəhər Bələdiyyəsinin, təhsil və səhiyyə müəssisələrinin rəhbərlərinin və təmsilçilərinin, ictimaiyyət nümayəndələrinin, qazilərin, şəhid ailələrinin üzvlərinin iştirakı ilə anım tədbiri keçirilib. Əvvəlcə Xocalı soyqırımı qurbanlarının, torpaqlarımızın qorunması və azad olunması uğrunda həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov bildirib ki, Xocalı faciəsinə ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən 24 fevral 1994-cü ildə siyasi qiymət verilmiş və dünya ictimaiyyətinin Xocalı soyqırımı ilə bağlı məlumatlandırılması istiqamətində işlər görülmüş, faciənin beynəlxalq təşkilatlar tərəfindən soyqırımı kimi tanınması üçün əməli tədbirlər həyata keçirilmişdir.



Cənab Prezidentimiz xocalılılara və bütün məcburi köçkünlərə daimi diqqət və qayğı göstərir. 15 oktyabr 2023-cü ildə Prezidentimiz cənab İlham Əliyev Xocalı şəhərində Azərbaycan bayrağını ucaltdı. Bu gün Xocalıda böyük tikinti-quruculuq aparılır, xocalılılar doğma yurdlarına qayıdırlar. Xocalıda həyat yenidən bərpa olunur.

Tədbirdə Xocalı Rayon İcra Hakimiyyətinin səlahiyyətli nümayəndəsi Zahir Usubov, Xocalı sakinləri Fizuli Allahverdiyev, Şahmalı Quliyev, YAP Şəhər Təşkilatının sədri Bəxtiyar Mustafayev, "Mingəçevir" qəzetinin baş redaktoru Mirsədi Daşdəmirov, "Şəhid Ailələrini Müdafiə Cəmiyyəti"nin Mingəçevir şəhər şöbəsinin sədri İranə Həsənova çıxış ediblər.

## Daşkəsən

Daşkəsən Rayon İcra Hakimiyyətinin akt zalında keçirilmiş Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunan toplantıda YAP rayon təşkilatının məsul əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, həmçinin ictimaiyyət nümayəndələri iştirak ediblər. Məruzə və çıxışlarda erməni qəsbkarlarının azərbaycanlılara qarşı əsrlər boyu həyata keçirdiyi etnik təmizləmə siyasətindən, o cümlədən Xocalı soyqırımının ağır nəticələrindən bəhs edilib. Erməni işğalçı qüvvələrinin Xocalıda törətdikləri kütləvi qırğının sülh və insanlıq əleyhinə yönələn əməl olduğu və ən ağır beynəlxalq cinayət sayıldığı qeyd olunub, soyqırımı aktına ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyi vurğulanıb. Diqqətə çatdırılıb ki, amansız soyqırımı qurbanlarının xatirəsi xalqımız tərəfindən heç zaman unudulmur, bu bəşəri cinayət barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması ilə bağlı Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən məqsədyönlü tədbirlər görülür. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində misilsiz igidlik, şücaət və rəşadət göstərən qəhrəman Ordumuz Xocalı soyqırımı qurbanlarının da qisasını döyüş meydanında aldı. 15 oktyabr 2023-cü il tarixində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Xocalıda Azərbaycan Respublikasının Dövlət Bayrağının ucaldılması tarixi ədalətin təntənəsi oldu.



## Masallı

Xocalı faciəsindən sonra Yusif Quliyev ömür-gün yoldaşı Kamilə xanım və 3 azyaşlı övladı ilə Şuşaya köçüb. Ailə "Şuşa" sanatoriyasında məskunlaşıb. Şuşanın işğalından sonra Şirvan şəhərinə, oradan isə Masallı rayonunun Ərkivan qəsəbəsinə pənah gətiriblər.



Xocalını məcburi tərk edəndə Zaurun 7, Vüsalənin 4, Vüsalın isə cəmi 2 yaşı vardı. İndi o vaxtdan 33 il keçir. Uşaqlar Masallıda böyüyüb, ailə qurub, ev-eşik sahibi olublar. Kamilə xanım Masallı Rayon Mərkəzi Xəstəxanasında işləyir. Ailənin başçısı Yusif isə təqaüdçüdür.

Quliyevlər ailəsinə dövlətimiz tərəfindən yüksək qayğı göstərilir. Ailənin böyük oğlu Zaur keçən il doğma yurda qayıdıb. Xankəndi şəhərində mənzillə təmin olunub. Qaz idarəsində işləyir. Övladları Zümrüd və Yusif Xankəndi şəhər Nizami Gəncəvi adına 4 saylı tam orta məktəbdə oxuyur.

Yusif kişi səhhəti ilə bağlı Xankəndiyə qayıdıb, oğlunun yanında qalır. Ailənin qalan üzvləri Ərkivan qəsəbəsində yaşayır. Masallı Rayon İcra Hakimiyyəti və rayonun əlaqədar təşkilatları ailənin qayğı və problemlərinin həllinə lazımi köməklik edir.

Bu günlərdə Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov Quliyevlər ailəsinə baş çəkib. Ailənin qayğıları ilə maraqlanıb. İcra başçısı bildirib ki, 33 il əvvəl törədilmiş bu dəhşətli faciə təkcə xocalılılara deyil, xalqımıza qarşı yönəlmiş soyqırımıdır. Bu, erməni separatçılarının bəşər tarixinə yazdığı ən dəhşətli qətliamdır.

Ailənin üzvü Vüsal Quliyev Azərbaycan Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Masallı rayonunun icra başçısına göstərdikləri yüksək diqqət və qayğıya görə dərin minnətdarlığını ifadə edib.

Xocalı faciəsinin 33-cü ildönümü ilə əlaqədar Masallı rayonunda silsilə tədbirlər keçirilib. Rayonda Xocalı soyqırımı qurbanlarının xatirəsi dərin hüznlə, böyük ehtiramla yad edilib.

## Xocalı

Qarabağ Universitetinin təşkilatçılığı və Qarabağ Regional Təhsil İdarəsinin dəstəyi ilə Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı Xocalı şəhəri 1 nömrəli tam orta məktəbdə anım tədbiri keçirilib.



Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin, həmçinin Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlanıb.





Tədbirdə Qarabağ Universitetinin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Nərgiz İsmayılova, Qarabağ Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli, Universitetin Tələbələrlə iş mərkəzinin direktoru İradə Süleymanova, Filologiya kafedrasının müdiri Əzizağa Nəcəfov, müəllimlər və tələbələr iştirak ediblər.

Xocalı şəhəri 1 nömrəli tam orta məktəbin direktoru Nəvai Həsənov tədbirdə çıxış edərək Xocalı faciəsinin iştirakçısı kimi öz xatirələrini bölüşüb.

Çıxış edənlər vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan Böyük Zəfər nəticəsində Xocalı soyqırımı qurbanlarının, eləcə də digər şəhidlərimizin qanı yerdə qalmadı. Bildirilib ki, dövlət başçısı İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltmaqla soyqırımı qurbanlarının qisasının alındığını bir daha sübuta yetirdi. Qeyd edilib ki, Böyük Qayıdışla əlaqədar yeni fəaliyyətə başlayan təhsil müəssisələrində keyfiyyətli tədrisin təmin edilməsi prioritet hesab edilir və bu istiqamətdə təhsilalanların nailiyyətlərinin artırılması üçün müvafiq tədbirlər görülür.

Sonda Xocalı faciəsinə və Zəfər tarixinə dair videoçarx təqdim edilib, tələbələr tərəfindən ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib.

## Xankəndi

Qarabağ Universitetində Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Universitetin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin, həmçinin Xocalı soyqırımı qurbanlarının əziz xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb.



Anım tədbirində Qarabağ Universitetinin, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, şəhər ictimaiyyətinin nümayəndələri, Xocalı faciəsinin canlı şahidləri və tələbələr iştirak ediblər.

Qarabağ Universitetinin Elm və innovasiya məsələləri üzrə prorektoru Fariz Əhmədov tədbirdə çıxış edərək Xocalı soyqırımının anlam və mahiyyətindən bəhs edərək bildirib ki, belə bir tədbirə ev sahibliyi etmək böyük məsuliyyətdir, çünki Xocalı təkcə Azərbaycanın deyil, bütün insanlığın yaddaşında dərin iz buraxan bir faciədir. Qarabağ Universitetinin strateji hədəflərindən biri həm də tarixi həqiqətlərin araşdırılması və beynəlxalq müstəvidə erməni terrorunun ifşa olunmasıdır.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov çıxış edərək diqqətə çatdırıb ki,



Xocalı soyqırımı özünün siyasi-hüquqi qiymətini yalnız ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra alıb və bundan sonra ölkə rəhbərliyinin tapşırıqlarına əsasən Azərbaycan reallıqlarının beynəlxalq ictimaiyyətə çatdırılması üzrə məqsədyönlü tədbirlər həyata keçirilib.

Universitetin Humanitar və sosial elmlər fakültəsinin dekanı, Beynəlxalq münasibətlər tarixi üzrə fəlsəfə doktoru Elmar Mustafayev Xocalı soyqırımının tarixi və onun bəşəriyyətə vurduğu mənəvi ziyan haqqında iştirakçıları məlumatlandırıb. Belə tədbirlərin xüsusilə gənc nəsil üçün Xocalı soyqırımının unudulmaması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Tədbirdə ADA Universitetinin müəllimi, italiyalı professor Daniel Pommier Vincelli Xocalı faciəsi həqiqətlərinin sübut edilməsi məqsədilə beynəlxalq səviyyədə apardığı tədqiqatlar barədə çıxış edib.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupunun üzvü, universitetin Azıx arxeoloji tədqiqatlar və analizlər laboratoriyasının müdiri Əjdər Babazadə Xocavənd rayonunun Edilli kəndi, Füzulinin Yuxarı və Aşağı Seyidəhmədli kəndlərində aşkar edilmiş kütləvi məzarlıqlar haqqında məlumatları diqqətə çatdırıb.

Daha sonra Xocalı faciəsinin canlı şahidləri Elmira Allahverdiyeva, Aynur Abışova, Sərvan Məmmədov və Samirə Hüseynova soyqırımın dəhşətləri barədə çıxış edərək faciənin unudulmaması üçün bu cür tədbirlərin əhəmiyyətli olduğunu qeyd ediblər.

Tədbirin yekununda "Xocalı soyqırımı: Qarabağ Universitetinin tələbələrinin gözü ilə" adlı virtual sərgi və "Unudulmayan ağrı, ucalan zəfər" adlı videoçarx nümayiş etdirilib.

## Tovuz

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov, YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbirdə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov bildirmişdir ki, hazırda hər bir azərbaycanlı bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi Qələbənin sevincini yaşayır. Azərbaycan Prezidenti cənab İlham Əliyev oktyabr ayının 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Üçrəngli Dövlət Bayrağını ucaltmaqla soyqırımı qurbanlarının ruhunu şad etdi. Bu həm də onların ailə üzvlərinə və xalqımıza böyük bir təsəlli idi.

Sonra dəyirmi masada Xocalı faciəsi ilə bağlı çıxışlar dinlənilmişdir. Belə ki, YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov, RİH başçısı aparatının hüquq şöbəsinin müdiri əvəzi Hüseyn Hüseynov, Qədirli kənd tam orta məktəbin direktoru Mileylə Bayramova və RİH başçısının Yanıqlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Yaqub Qasımov qeyd ediblər ki, hər il xalqımız Xocalı soyqırımını böyük kədər hissi ilə anır.

## Şəmkir

Ermənistanın Azərbaycana hərbi təcavüzü və ərazilərimizin işğalı dövründə azərbaycanlı mülki əhaliyə qarşı törədilmiş Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı Şəmkir rayonunda silsilə tədbirlər keçirilib.



Anım tədbirlərində Şəmkir Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Süleyman Zeynallı, RİH-in rəhbər heyəti və əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri iştirak ediblər.

Əvvəlcə Şəmkir Şəhidlər Xiyabanında yerləşən Soyqırım Abidəsi və Şəhidlər Memorial Abidə Kompleksi ziyarət olunub, önünə tər çiçəklər düzülüb.

Tədbirdə vurğulandı ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi, eləcə də uğurlu antiterror tədbirləri nəticəsində respublikamızın ərazi bütövlüyü və suverenliyi tam təmin olundu. Xocalı şəhəri separatçılardan təmizləndi və bu gün bütöv Azərbaycanın hər bir ərazisində şanlı bayrağımız dalğalanır və həmin ərazilərdə aparılan abadlıq-quruculuq işləri ilə yeni həyat başlayır.

## Ağstafa

Ağstafa Rayon Heydər Əliyev Mərkəzində təşkil edilən anım tədbirində Ağstafa RİH başçısı Seymur Orucov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, məsul şəxslər, şəhid ailələrinin üzvləri, müharibə veteranları, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Xocalı qurbanlarının, o cümlədən bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə RİH başçısı bildirib ki, 2023-cü il oktyabrın 15-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xocalı şəhərində Dövlət Bayrağımızın ucaltması həm də soyqırımı qurbanlarının qisasının layiqincə alındığının təntənəsi idi.

YAP Ağstafa Rayon Təşkilatının sədri Etibar Hacıyev, rayon Mədəniyyət Mərkəzinin bədii rəhbəri Oruc Mansırov, Ağstafa şəhər 1 nömrəli tam orta məktəbin təşkilatçı müavini Xəyalə Əmrahova bu soyqırımına obyektiv qiymət verilməsi məqsədilə atılan davamlı addımlardan söz açıblar.

Rayonun məktəbəqədər və ümumtəhsil müəssisələrinin Xocalı soyqırımına həsr etdikləri ədəbi-bədii kompozisiyalar, eləcə də mərkəzin foyesində əl işlərindən ibarət sərgilər nümayiş etdirilib.

## İmişli

XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı qurbanlarının xatirəsi İmişli rayonunda da dərin hüznlə anılıb. Fevralın 26-da Xocalı faciəsinin 33-cü ildönümü ilə bağlı İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev, rayon prokuroru Valeh Səmədov, rayonun hüquq-mühafizə orqanlarının, idarə və təşkilat rəhbərlərinin iştirakı ilə rayonun Heydər Əliyev Mərkəzində dəyirmi masa keçirilib. Rəsmi hissədən əvvəl Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş rəsm sərgisinə baxış keçirilib. Tədbirdə dövlət himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirələri bir dəqiqəlik sükutla yad edilib.



Tədbirdə İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev bildirib ki, 1992-ci il fevralın 26-da erməni işğalçıları tərəfindən törədilmiş Xocalı soyqırımı tariximizə ən dəhşətli və faciəvi səhifələrdən biri kimi daxil olub. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qaydışından sonra bu məsələyə prinsipal şəkildə yanaşmış, soydaşlarımıza qarşı qəddarcasına törədilən dəhşətli qətliama obyektiv hüquqi-siyasi qiymət verilmişdir. Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində artıq bir sıra beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərdə Ermənistan işğalçı dövlət kimi göstərilmiş və Xocalı faciəsini tanımışlar.

Çıxış edənlər bildiriblər ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun Vətən müharibəsindəki parlaq Qələbəsi Azərbaycan tarixinə Zəfər ili kimi yazıldı. Hazırda Azərbaycanın üçrəngli Dövlət bayrağının işğaldan azad edilən bütün torpaqlarımızda dalğalanması fərəh doğurur. Xalqımız Xocalı soyqırımı qurbanlarının xatirəsini artıq 5-ci ildir ki, qalib ölkə, qalib xalq kimi anır.

## Beyləqan

Xocalı soyqırımının anım günü Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin simvoluna çevrilib. Beyləqanda Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edildi. Xocalı soyqırımının 33-cü ildönümünü ilə əlaqədar Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, RİH başçısı aparatının əməkdaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri və qeyri-hökumət təşkilatlarının nümayəndələri "Soyqırımı" abidə kompleksinə gül dəstələri düzərək faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər. Qeyd olunub ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etdilər. Hərbi birləşmələrin Xocalıya hücumu zamanı yüzlərlə günahsız insanın, o cümlədən uşaqların, qocaların, qadınların qətlə yetirilməsi Azərbaycan tarixinin ən qanlı səhifəsidir. Törədilən soyqırımının əsl mahiyyəti ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra açılıb və Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına hüquqi-siyasi qiymət verib.



**"Respublika".**